**RAST MÜZİKOLOJİ DERGİSİ**
**Uluslararası Müzikoloji Dergisi**
**www.rastmd.com**

Doi:10.12975/rastmd.2016.04.02.00078




# AZƏRBAYCAN XALQININ TOY MƏRASİM MUSİQİSİ

**Samirə Əzizova[1]**

## ÖZET

Folklor və toy mərasimi qarşılıqlı əlaqəli anlayışlar olub, qədim etnosun məişətinin və ictimai həyatının bir çox hadisələrinin dərk olunmasına yol açır. Toy – mədəniyyətin ayrılmaz tərkib hissəsi, milli ruhun təzahürüdür. Toy mərasiminin mərhələlərinin musiqi və poetik tərtibatında gerçəkliyin sinkretik qavranılması, xalqın inancları və ayinləri, adət və ənənələri, nəsillərin varisliyi, həyatın mənası haqqında fikirlər öz əksini tapır. Toy mərasimində xalqın musiqi və poetik yaradıcılığının zənginliyi yanaşı, özünəməxsus janr rəngarəngliyi, ifadə vasitələri, dil-təfəkkür xüsusiyyətləri, obrazlar dairəsi, təsviri-tətbiqi sənət növlərinin, geyim və mətbəx mədəniyyətinin təzahürləri vəhdətdə özünü göstərir. Toy mərasimində xalqın poetik və musiqi istedadı, ifaçılıq mədəniyyəti, bədii-estetik zövqü, psixoloji düşüncə tərzi, qəlbinin genişliyi özünü qabarıq şəkildə büruzə verir.

**Anahtar Kelimeler:** folklor, toy mərasimi, janr rəngarəngliyi, sinkretik qavranılma, obrazlar dairəsi.

# СВАДЕБНАЯ ОБРЯДОВАЯ МУЗЫКА АЗЕРБАЙДЖАНСКОГО НАРОДА

**Самира Азизова**

## РЕЗЮМЕ

Фольклор и свадебный обряд, как взаимосвязанные понятия раскрывают пути к познанию общественной жизни и быта древнего этноса. Свадьба – неотъемлемая часть культуры народа и проявление национального духа. В музыкальном и поэтическом содержании разных этапов свадебного обряда отражается синкретическое восприятие окружающей действительности, народные верования и ритуалы, обряды и традиции, преемственность поколений, смысл жизни. В свадебном обряде отражается богатство музыкального и поэтического творчества народа, жанровое разнообразие, своеобразие средств выражения, особенности мышления и языка, образная система во взаимосвязи с прикладным искусством, кулинарной культурой и т.д. В свадебном обряде также

[1] Azərbaycan Milli Konservatoriyası

проявляется поэтический и музыкальный талант народа, исполнительское искусство, художественно-эстетический вкус, психологическое мышление, широта души.

**Ключевые слова:** фольклор, свадебный обряд, жанровое разнообразие, синкретическое восприятие, образная система.

# THE WEDDING RITUAL MUSIC OF AZERBAIJANI PEOPLE

**Samira Azizova**

## ABSTRACT

Folklore and wedding ceremony as related concepts, revels the ways of learning society and everyday life of the ancient ethnic group. Wedding - is an integral part of the culture of the nation and the manifestation of the national spirit. In the musical and poetic content of the different stages of a wedding ceremony reflected syncretic perception of reality, folk beliefs and rituals, customs and traditions, the continuity of generations, the meaning of life. The wedding ceremony reflects the wealth of musical and poetic creativity of the nation, genre diversity, originality means of expression, thought and language features, imaging system in conjunction with arts and crafts, culinary culture, etc. The wedding ceremony is also apparent poetic and musical talent of the nation, performing arts, artistic and aesthetic taste, psychological thinking, the breadth of the soul.

**Keywords:** folklore, wedding ceremony, genre diversity, syncretic perception, imaging system.

## GİRİŞ

Azərbaycan xalqının ənənəvi mədəniyyəti özünəməxsusluğu ilə fərqlənir. O özündə xalq həyat fəaliyyətinin bir çox tərəflərini – mərasimləri, bayramları, adətləri və s. toplamışdır. Müasir Azərbaycan etnomusiqişünaslığında ən aktual məsələ xalq mədəniyyətinin müxtəlif cəhətlərinin əhatəli tədqiqi ilə bağlıdır. Sözsüz ki, təqvim bayramları, toy mərasimləri bir çox xalqların mədəniyyətində də vardır və bunlar ən geniş etnomədəni zonaları əhatə edirlər. Lakin hər bir konkret halda onlar öz xüsusiyyətləri, özünəməxsusluqları ilə seçilirlər. Folklorda Azərbaycan xalqının dünyagörüşü ilə bağlı təsəvvürləri – rəmzi atributlar, ritual modelləri, arxetiplər və s. öz əksini tapmışdır. Ona görə də burada müəyyən ümumi məzmun formalaşır ki, bu da bütün incəsənəti öz ətrafında birləşdirir. Burada Azərbaycan mədəniyyətini digərlərindən fərqləndirən ən məxsusi cizgilər, ona təkrarolunmaz özünəməxsusluq verən əlamətlər cəmləşmişdir.

Sənətşünaslığının aktual problemlərindən biri kimi xalq mədəniyyətinin tam kompleks halında öyrənilməsi qanunauyğundur. Azərbaycan toy mərasimlərin etnomədəniyyət kontekstində tədqiqi Azərbaycan incəsənətinin yeni – etnobədii rakursda araşdırılmasına imkan verir.

Xalq musiqi yaradıcılığının janr rəngarəngliyi və musiqi dilinin xüsusiyyətləri Azərbaycan xalqının qədim tarixi, etnoqrafiyası, ədəbiyyatı ilə sıx bağlıdır. Bu cəhətlərin qarşılıqlı əlaqədə öyrənilməsi isə musiqişünaslıqda mühüm əhəmiyyətə malikdir. Eləcə də xalq mahnı və rəqslərinin toplanması və nota yazılması tarixinin sistemləşdirilməsi milli mənəvi dəyərlərimizin qorunub saxlanması, gələcək nəsillərə ötürülməsi və dünya miqyasında təbliği zəruridir.

Qeyd edək ki, xalq musiqi nümunələri yarandığı dövrlərdən bu günümüzə qədər öz təravətini itirməmiş, tarixin müəyyən mərhələlərində təkamülə uğramış, lakin öz dəyərini saxlamış, dövrə və mühitə uyğun dəyişmiş, zənginləşmişdir. Xüsusilə mərasim tamaşalarını müşayiət edən mahnılar və rəqslər, janrın teatrallaşması bu gün xüsusi əhəmiyyət kəsb etmişdir.

Azərbaycan toyu xalqın çoxjanrlı və müxtəlif formalı musiqi və xoreoqrafiya sənətinin təzahürüdür. Toy şənliyinə aşıq, sazəndə, zurnaçı dəstəsi, kəndirbazlar dəvət olunur, güləşmək üçün xüsusi yer – zorxana hazırlanır, at çapmaq yarışı – cıdır təşkil olunur. Onların çıxışı toyun tərkib hissəsidir və hər biri də özünəməxsus musiqi - mahnı və rəqslərlə müşayiət edilir. Burada artıq instrumental rəqs musiqisi üstünlük təşkil edir. Belə ki, qadınların, kişilərin, qocaların rəqsini müşayiət edən rəqs melodiyaları ənənəvi oyun və yarışlar zamanı səslənən musiqi buna misal ola bilər.

Ü.Hacıbəyli xalq adət-ənənələrini xarakterizə edərək yazırdı: "Azərbaycanın bir çox mahallarında toy və düyün zamanı, yaxud bayram və başqa bir şadlıq günlərində camaat hamısı bir yerə yığılıb, iki tərəfli olaraq deyişmələr oxuyarlar... Bir yerdə musiqi istemalı xalq adətlərindən biri hesabında olub, hamılıqla icra edilir" (1, 185). Bu mərasimlərin əsas musiqi materialı xalq mahnı və rəqslərindən ibarət olur. Xalq musiqi yaradıcılığını çox dəyərləndirən Üzeyir Hacıbəyli onları Azərbaycan xalqının əhval-ruhiyyəsini, zövqünü və yaradıcılıq qabiliyyətini əks etdirən böyük bir material hesab edirdi. O, xalq mahnılarının istər musiqi, istər ədəbi, istər psixoloji, istərsə də etnoqrafık baxımından əhəmiyyətini yüksək qiymətləndirirdi (1, 190).

Elmi ədəbiyyatdan məlumdur ki, Azərbaycan xalq mahnıları mövzu, musiqi məzmunu və ifaçılıq xüsusiyyətlərinə görə bir neçə qrupa bölünür. Məmmədsaleh İsmayılovun tədqiqatlarında xalq musiqi yaradıcılığında xalq mahnı və rəqslərinin musiqi xüsusiyyətlərinin təhlilinə xüsusi diqqət yetirmişdir (2). Bu baxımdan M.İsmayılovun elmi müddəaları bizim tədqiqatımızın metodoloji əsasını təşkil edən əsas mənbələrdən biridir.

Rauf İsmayılzadə xalq mahnılarını dörd qrupa bölmüşdür: əmək mahnıları, mərasim mahnıları, məişət mahnıları, tarixi mahnılar (3). Bunların daxilində də növ müxtəlifliyi özünü göstərir. Bu təsnifatda toy mahnıları mərasim mahnı janrının ailə mərasimləri növünə aid edilir.

O cümlədən də xalq rəqslərində də buna uyğun janr bölgüsü aparılır. Xalq rəqslərini tədqiqatçısı, musiqişünas-alim B.Hüseynli Azərbaycan rəqs musiqisini mövzu əsasına görə altı böyük janra bölmüşdür: Ənənəvi rəqslər; Məişət rəqsləri; Zəhmət rəqsləri; Qəhrəmani, hərbi və idman oyunları rəqsləri; Yallı oyun rəqslər; Müxtəlif mövzulu xalq rəqsləri. Toy mərasim rəqsləri ənənəvi rəqslərin bir növü kimi göstərilmişdir. Bu janr qruplarına aid rəqslər özünəməxsus cəhətlərə malikdir və B.Hüseynli tərəfindən xarakterizə olunmuşdur (4).

Toy mahnıları – toy mərasiminin tərkib hissəsi olduğu üçün onların məhz ümumi mərasim kontekstində araşdırılması məqsədəuyğun hesab edilir. Toyda mahnı və rəqs çox zaman bir-birindən ayrılmazdır. Buna görə də toy mahnıları şuxluğu, oynaqlığı ilə fərqlənir. Toy mərasim mahnıları rəqs, teatrlaşdırılmış səhnəciklərlə müşayiət olunur.

Toy mərasimində bir sıra mərhələlər icra edilir: elçilik, nişanlanma, xınayaxdı, gəlin gəlmə, toy, duvaqqapma və i.a. Hər bir mərhələnin özünəməxsus mahnıları mövcuddur. Toy mahnıları içərisində lirik xarakterli mahnılar da çoxdur. Belə mahnılar toy mərasiminin müxtəlif anları ilə əlaqədar oxunulur. Məsələn, gəlini ata evindən yola saldıqda «Xoş getdin», oğlanın qohum-əqrəbələri, dostları qız evinə yaxınlaşdıqda «Aparmağa gəlmişik», gəlin ər evinə gəldikdə nəsihətedici mahnılarla («Xoş gəldin», «Əylən gəlin») qarşılanır (5). Toy mahnılarının xüsusi bir növü də "Halay" mahnı-rəqsləridir ki, iki qrupa bölünərək ifa olunur (6).

Azərbaycan xalq musiqi irsi toy mərasimi ilə bağlı mahnı və rəqslərlə zəngindir. Toy mərasimi ilə bağlı xalq mahnı və rəqslərinin musiqi dilinin quruluşunda müəyyən qanunauyğunluqlar özünü göstərir ki, onların daha geniş təhlilinə musiqişünaslıqda böyük ehtiyac vardır.

Toy mərasimlərinin yerli lokal xüsusiyyətləri və ümummədəni cəhətləri vardır. Azərbaycan ərazisində ümumilikdə götürdükdə, toy mərasimi adət-ənənələri özündə cəmləşdirən, bir-birilə əlaqədar mərhələlərdən və tərkib hissələrindən ibarət mərasim kimi xatarkterizə olunur.

Azərbaycanın hər bir bölgəsində, hər bir rayonunda, bəzən hətta kəndində özünəməxsus toy adət-ənənələri mövcuddur və qədim dövrdən bu günə kimi qorunub saxlanmış, öz tərtibat xüsusiyyətlərini dəyişsə də, xalqın mənəviyyatı, mentaliteti və dünyagörüşü ilə bağlı dərin mahiyyətini dəyişməmişdir.

Toy mərasiminin kompleks şəkildə öyrənilməsi də mühüm əhəmiyyətə malikdir. Belə ki, toy mərasimi hər bir ailədə konkret cəhətlərlə xarakterizə olunmaqla yanaşı, cəmiyyətdə, mühitdə özünəməxsus mənəvi, sosioloji, iqtisadi və s. amilləri özündə əks etdirən böyük bir mədəni hadisə kimi nəzərdən keçirilə bilər.

Müasir dövrdə milli ənənələrin, adətlərin və mərasimlərin dirçəldilməsi tendensiyası özünü göstərir ki, bu da dərin köklərə və ictimai əhəmiyyətə malikdir. Toy mərasimi də bu qəbildəndir. Toy mərasimi hər bir xalqın həyatında əlamətdar hadisə kimi dəyərləndirilir. Toy – cəmiyyətin tərkib hissəsi olan ailənin yaradılması prosesində onun bünövrəsinin qoyulduğu bir mərhələdir. Ailənin müstəsna əhəmiyyəti və onun vəzifələrinin çoxcəhətliliyi toy mərasiminin mürəkkəbliyini şərtləndirir.

Tarixi-mədəni, folklor-etnoqrafik fenomen kimi, toy mərasimi özündə xalqın şifahi poetik və musiqi yaradıcılığını təcəssüm etdirir, bu da ailə həyatı, etik normalar və mənəvi prinsiplərlə bağlı xalqın qədim dünyagörüşünü əks etdirir. Toy mərasimi və folklor – qədimdə etnosun məişətinin və ictimai həyatının bir çox hadisələrinin dərk olunmasına yol açır. Toy – mədəniyyətin ayrılmaz tərkib hissəsi, milli ruhun təzahürüdür.

Toy mərasiminin mərhələlərinin musiqi və poetik tərtibatında gerçəkliyin, bizi əhatə edən aləmin sinkretik qavranılması, xalqın inancları və ayinləri, adət və ənənələri, insan, ailə, uşaq, nəsillərin varisliyi, həyatın mənası haqqında fikirlər öz əksini tapır. Toy mərasimində xalqın musiqi və poetik yaradıcılığının zənginliyi yanaşı, özünəməxsus janr rəngarəngliyi, ifadə vasitələri, dil-təfəkkür xüsusiyyətləri, obrazlar dairəsi, təsviri-tətbiqi sənət növlərinin, geyim və mətbəx mədəniyyətinin təzahürləri baxımından çoxtəbəqəli quruluşu dərin bir vəhdətdə özünü göstərir.

Toy mərasimi müəyyən sabit kompozisiya quruluş xüsusiyyətlərinə malik olub, əsrlərin dərinliyindən gələn etnik həyat tərzinin xüsusiyyətlərini, xalqın dünyagörüşünün musiqi, poetik və ədəbi, xoreoqrafik, oyun və tamaşa, tətbiqi sənət növləri, adət-ənənələr və ayinlər vasitəsilə, xalqın yaradıcılıq təfəkkürü ilə canlanan boyalarla bizə çatdırır. Bütün bunlar toy mərasimini mürəkkəb quruluşa malik xalq yaradıcılığı növü kimi xarakterizə etməyə əsas verir.

Toy mərasimi milli folklorun bütün rəngarəngliyini özündə əks etdirir. Onun tərkib hissələri – toyun ardıcıl icra olunan mərhələlərindən, adət-ənənələrdən ibarətdir. Bu mərhələlərdən hər biri özünəməxsus hərəkət, davranış, dialoq, şeir, mahnı, rəqs və s. tərtibat xüsusiyyətlərinə malikdir. Toy mərasiminin özünəməxsus geyim tərzi, mətbəx mədəniyyəti vardır. Bütün bunlar həm ayrı-ayrılıqda öyrənilə bilən sahələrdir və mütəxəssislərin diqqətini

cəlb edir. Eyni zamanda, bunların kompleks öyrənilməsi də vacibdir və bu baxımdan xalqın həyatının və mədəniyyətinin bütöv bir təbəqisini gözümüz qarşısında canlandırır.

Müasir dövrdə toy mərasiminin tərtibatı, şəkli dəyişsə də, qədim adət-ənənələrin xalqın təfəkküründə kök salmış bir çox sabit cəhətləri özünü qabarıq büruzə verir. Toy – ailə-nəsil mənası daşıyaraq, yenilənməni, həyatın davam etdirilməsini simvolizə edir, bu baxımdan, ilahi qüvvəyə inam, ayinlər və s. qabarıq surətdə özünü büruzə verir.

Toy mərasim folkloru – Azərbaycan xalqının, o cümlədən, türkdilli xalqların, ümumi genetik köklərinin, mərasim mədəniyyətinin inkişafının tipoloji qanunauyğunluqlarının üzə çıxarılmasına xidmət edən bir materialdır.

Müasir Azərbaycan toyu – qədim Azərbaycan toy adət-ənənələrinin, milli koloritin Avropadan gələn xüsusiyyətlərlə, tərtibat qaydaları ilə birləşməsindən meydana gələn bir mərasimdir. Başqa sözlə desək, milli toy adət-ənənələri, müəyyən dərəcədə avropalaşmış xarakter kəsb etmişdir. Bu da dövrün, zamanın tələbindən, zövqlərin dəyişməsindən, texnologiyaların inkişafından əmələ gələn bir xüsusiyyətdir. Buna baxmayaraq, müasir dövrdə cəmiyyətdə nə qədər avropaya meyllilik olsa da, toy adət-ənənələrinin milli koloriti qorunub saxlanılır, demək olar ki, bütün mərhələləri yeniləşmiş tərtibatda icra olunur.

Burada özünəməxsus musiqi repertuarı – mahnı, rəqs, aşıq, muğam kimi milli musiqi ifaçılığı ilə yanaşı, müasir qərb estrada musiqisindən istifadə özünü göstərir. Bunun müqayisəli şəkildə dəyərləndirilməsi vacib məsələlərdəndir. Azərbaycan xalqının məişətində kök salmış toy mərasimi müasir dövrdə özünəməxsus adət-ənənələrlə zənginləşmişdir. Azərbaycan toyunun mərhələləri bunlardır: Qız bəyənmə və qızgörmə. Xəbər göndərmə. Elçilik. Böyük elçilik. Nişan taxma. Xonça gətirmə. Bayramlıq gətirmə. Danışığa gəlmə. Cehiz. Fətirüstü. Çörəkbişdi. Qız şaxı. Xınayaxdı. Kəbinkəsdirmə. Qız toyu. Toy günü. Gəlin aparma. Oğlan toyu.

Tarixi-mədəni, folklor-etnoqrafik fenomen kimi, toy mərasimi özündə xalqın şifahi poetik və musiqi yaradıcılığını təcəssüm etdirir, bu da ailə həyatı, etik normalar və mənəvi prinsiplərlə bağlı xalqın qədim dünyagörüşünü əks etdirir. Toy mərasimi və folklor – qədim etnosun məişətinin və ictimai həyatının bir çox hadisələrinin dərk olunmasına yol açır. Toy – mədəniyyətin ayrılmaz tərkib hissəsi, milli ruhun təzahürüdür. Toy mərasiminin mərhələlərinin musiqi və poetik tərtibatında gerçəkliyin, bizi əhatə edən aləmin sinkretik qavranılması, xalqın inancları və ayinləri, adət və ənənələri, insan, ailə, uşaq, nəsillərin varisliyi, həyatın mənası haqqında fikirlər öz əksini tapır.

Toy mərasimində xalqın musiqi və poetik yaradıcılığının zənginliyi yanaşı, özünəməxsus janr rəngarəngliyi, ifadə vasitələri, dil-təfəkkür xüsusiyyətləri, obrazlar dairəsi, təsviri-tətbiqi sənət növlərinin, geyim və mətbəx mədəniyyətinin təzahürləri baxımından dərin bir vəhdətdə özünü göstərir. Toy mərasimində xalqın poetik və musiqi istedadı, ifaçılıq mədəniyyəti, bədii-estetik zövqü, psixoloji düşüncə tərzi, qəlbinin genişliyi özünü qabarıq şəkildə büruzə verir. Bütün bunlar folklorşünasların, etnoqrafların, tarixçilərin, ədəbiyyatşünasların və musiqişünasların diqqətini cəlb edərək, toy mərasiminin xalq mədəniyyətinin vacib bir sahəsi kimi öyrənilməsini aktuallaşdırır.

Azərbaycan toy mərasimi xalqın ən əhəmiyyətli və təntənəli ailə adət-ənənələrindən biridir. Toy – mürəkkəb və çoxpilləli mərasim olub, bir çox ayin və adətlərin yerinə yetirilməsini tələb edir. Qədim Azərbaycan toyu silsilə adət-ənənələrdən ibarət olmuşdur ki, onlar bu günə qədər xalqın təfəkküründə və məişətində yaşayır və yerunə yetirillir. Toy adət-ənənələri üç mərhələdən ibarətdir: toyaqədərki mərhələ (elçilik, nişan, nigahın bağlanması), toy mərasimi və toydan sonrakı mərhələ (üzəçıxdı, gəlingördü, ayaqaçdı, qonaqçağırma). Toy

mərasimi müəyyən sabit kompozisiya quruluş xüsusiyyətlərinə malik olub, əsrlərin dərinliyindən gələn etnik həyat tərzinin xüsusiyyətlərini, xalqın dünyagörüşünün musiqi, poetik və ədəbi, xoreoqrafik, oyun və tamaşa, tətbiqi sənət növləri, adət-ənənələr və ayinlər vasitəsilə, xalqın yaradıcılıq təfəkkürü ilə canlanan boyalarla bizə çatdırır. Bütün bunlar toy mərasimini mürəkkəb quruluşa malik xalq yaradıcılığı növü kimi xarakterizə etməyə əsas verir. Azərbaycan xalqının toy mərasimi milli folklorun bütün rəngarəngliyini özündə əks etdirir. Onun tərkib hissələri – toyun ardıcıl icra olunan mərhələlərindən, adət-ənənələrdən ibarətdir. Bu mərhələlərdən hər biri özünəməxsus hərəkət, davranış, dialoq, şeir, mahnı, rəqs və s. tərtibat xüsusiyyətlərinə malikdir. Toy mərasiminin özünəməxsus geyim tərzi, mətbəx mədəniyyəti vardır. Bütün bunlar həm ayrı-ayrılıqda öyrənilə bilən sahələrdir və mütəxəssislərin diqqətini cəlb edir. Eyni zamanda, bunların kompleks öyrənilməsi də vacibdir və bu baxımdan xalqın həyatının və mədəniyyətinin bütöv bir təbəqisini gözümüz qarşısında canlandırır.

**SONUÇ**

Azərbaycanlılarda folklor və toy ənənələri sistemi vahid bir silsilə təşkil edərək, mərasimin müqəddəs, sirli cəhətlərini və ayin simvolikasını, söz, rəqs, geyim, mətbəx mədəniyyətini, xalqın qədim dünyagörüşünü və sinkretik düşüncə tərzini özündə cəmləşdirir. Azərbaycan toyunu yalnız ailə-məişətlə bağlı bayram kimi deyil, folklorda öz əksini tapmış həyati vacib qanunları, mənəvi-əxlaqi qaydaları, xalq hüquq normalarını təcəssüm etdirir. Toyun hər bir epizodu mədəni, mərasim, söz-poetik komponentlərin sintezi kimi özünü göstərir. Xalqın ailə və onu əhatə edən aləm haqqında təsəvvürlərini əks etdirir. Buradan da etnik və ictimai baxımından çoxplanlılıq meydana gəlir. Ənənəvi xalq mədəniyyətinin, o cümlədən, musiqisinin öyrənilməsi elmi təhlilin yeni yanaşma və prinsiplərinin tətbiqi ilə bağlıdır. Bütün bunların əsasını mədəniyyətin etnogenetik tədqiqatların əsas mənbələrindən biri olması ideyası təşkil edir. Belə ki, tədqiqatçıların fikrincə, folklor-etnoqrafik material bir-birini tamamlamağa qadirdir. Bu zaman xüsusilə incəsənətin (onun müxtəlif növlərinin) kökləri, mənbələri dərindən dərk edilir, həm də mərasim və ayinlər, həmçinin adətlər və inanclar sistemi daha tam halda rekonstruksiya olunur.

**KAYNAKLAR**


1. Hacıbəyov Ü.Ə. Seçilmiş əsərləri. B., “Yazıçı”, 1985. 412 s.
2. İsmayılov M.C. Azərbaycan xalq musiqisinin janrları. Yenidən işlənmiş və tamamlanmış nəşri. B., İşıq, 1984. 100 s.
3. İsmayılzadə R. Azərbaycan xalq mahnıları. // Azərbaycan xalq musiqisi. Oçerklər. Bakı, “Elm”, 1981. s. 52-85;
4. Гусейнли Б.Х. Принципы жанровой классификации народной танцевальной музыки. / Ученые записки Азербайджанской Государственной Консерватории. Б.: 1974, 1974, №2, с.3-17.
5. Azərbaycan xalq mahnıları. Not yazıları S.Rüstəmov, F.Əmirov, T.Quliyev. Redaktor Bülbül. I cild. Bakı, 1981.
6. Hüseynli B.X. Azərbaycan xalq rəqs melodiyaları. II dəftər. Halay. (redaktorlar: Ə.Abbasov, Gündüz, R.Rəhimova). Bakı, 1966.